**Yaqut Əhməd SALAHOVA,**
**Xanımqız Rüstəm RÜSTƏMOVA**
ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedagoji Kolleci
E-mail:yaqut.salah@mail.ru
*Qərbi Kaspi Universiteti, Bakı, AZ-1001, Azərbaycan*

# BİOLOJİ AMİLLƏRİN PSİXOLOJİ ASPEKTLƏRİ

**Xülasə**

Təqdim edilən işdə bioloji amillərin insanların psixologiyasına təsiri araşdırılmışdır. Tədqiqatlar zamanı bitkilərin və heyvanların insanların psixologiyasına təsiri ayrı-ayrılıqda araşdırılmışdır. Müəyyən edilmişdir ki, bu amillərin hər birinin insan psixologiyasına güclü təsiri vardır. Ona görə də insanlar yaşadıqları ərazilərdə xoşladıqları bitkiləri becərirlər. Yaxınlarından uzaqlaşmış insanlar əsasən ev heyvanları saxlayırlar. Canlı aləmin insanların psixologiyasına təsirindən uşaqların psixologiyasının yaxşılaşdırılması məsələlərində istifadə edilməsi tövsiyə edilmişdir. Müəyyən edilmişdir ki, məktəblilərin zoozparklara, botanika bağlarına ekskursiyası həm biologiya elminə olan marağı artırır, həm də onların psixologiyasına yaxşı təsir göstərir.

**Açar sözlər**: bioloji amillər, psixologiya, bitkilər, heyvanlar, canlılar.

**UOT:**80
**DOI:** https://doi.org/ 10.54414/ZZMG2052

## Giriş

Məlumdur ki, ətraf mühitin insan psixologiyasına güclü təsiri vardır. Ona görə də insanlar ətraflarını öz psixologiyalarına uyğun olaraq seçirlər. Psixologiya elmi inkişaf etdikcə psixoloji amillərin bir çox sahələrə tətbiq edilməsinə başlanılmışdır. Son zamanlar iqtisadi psixologiya, tibbi psixologiya kimi terminlər yaranmağa başlamışdır [1-3]. Çünki insanların psixoloji durumu onların iş qabiliyyətlərinə birbaşa təsir göstərir. Şəxsi həyatında müəyyən uğursuzluqlarla üzləşmiş şəxslər iş həyatında uğur qazanmaqda çətinlik çəkirlər. Lakin elə insanlar vardır ki, şəxsi həyatlarındakı uğursuzluqları qəbul edə bilmirlər və ona görə də iş həyatında uğur qazanaraq özlərini təsdiq etmək istəyirlər. Belə insanlar uğurlu iş adamlarına çevrilirlər. Bütün bunlar insanın psixoloji durumu ilə əlaqədardır. Əgər şəxsi həyatındakı uğursuzluğu psixoloji olaraq ikinci plana salmaq mümkündürsə o zaman istənilən uğura imza atmaq mümkün olacaqdır [4]. Bu halların araşdırılması zamanı psixologiya elmindı yeni nəticələrin alınmasına gətirib çıxarır. Psixologiya elminin tətbiq sahələrindən biri də pedagogika sahəsidir. Belə ki, tədris prosesində şagirdlərin və tələbələrin psixoloji durumlarının düzgün qiymətləndirilməsi, onların bilikləri daha da asan mənimsəmələrinə dəstək göstərir. Ona görə də son zamanlar tədris prosesində daha çox fərdi yanaşma metodları üstünlük təşkil edir [5-7].

Göründüyü kimi psixologiyanın müxtəlif elm sahələri ilə qarşılıqlı əlaqəsi istiqamətində aparılan tədqiqatlar nəticəsində insan cəmiyyətinin müxtəlif sahələrində uğurlu nəticələrin əldə edilməsinə imkan verir. Məlumdur ki, psixologiya elmi insanı öyrənən elmlər sahəsində xüsusi yer tutur. Çünki elə elm sahələri vardır ki, onların inkişafı nəticəsində əldə edilmiş yeniliklər texnologiya sahəsində istifadə edilir, elə elm sahəsi vardır ki, onların inkişafı nəticəsində əldə edilmiş yeniliklər iqtisadiyyatda və ya müəssisələrdə gəlirlərin əldə edilməsi sahəsində istifadə edilir Lakin psixologiya elmində əldə edilmiş yeniliklər insan faktoruna rast gəlinən bütün sahələrdə tətbiq oluna bilir. Ona görə də psixologiyanın inkişaf etməsi həm ailədə, həm tədrisdə, həm də iş həyatında insanlar arasındakı münasibətlərin normallaşmasına xidmət göstərir. Bu baxımdan bir çox sahələrin psixoloji aspektləri araşdırılmaqda davam etdirilir. Müəyyən elm sahələrində davamlı tədqiqatların aparılmasına

və ciddi elmi nəticələrin əldə edilməsinə baxmayaraq, biologiya elminin psixologiya elmi ilə qarşılıqlı əlaqələri, o cümlədən bioloji amillərin psixoloji aspektləri kifayət qədər öyrənilməmişdir. Məlumdur ki, insan yaranandığı gündən təbiətlə təmasda olmuşdur. Təbiətdə qarşılaşdığı ilk amillər bioloji amillər olmuşdur. Qidalanma üçün istifadə etdikləri bitkilər və heyvanlar insanlarda psixoloji auranın formalaşmasına gətirib çıxarmışdır. Qısa zaman müddətində onların xoşa gələnləri və xoşa gəlməyənləri formalaşmışdır. Bəşər cəmiyyəti inkişaf etdikcə bu deşencələr daha da inkişaf etmişdir. Psixologiya elminin indiki inkişaf mərhələsində bioloji amillərin insan psixologiyasına təsirinin araşdırılması çox vacibdir. Bu işdə bioloji amillərin psixoloji aspektləri tədqiq edilmişdir.



**Şəkil 1. Ağaclar arasında salınmış yolların mənzərəsi.**

**Tədqiqat metodları**

Bioloji amillərin psixoloji aspektlərinin tədqiqi zamanı müxtəlif analiz metodlarından istifadə edilmişdir. İnsanların bioloji amillərlə əlaqələri araşdırılmışdır. Bitkilərin insan həyatındakı rolu, qidalanma zamanı istifadə, oksigen mənbəyi hesab edilməsi, bağların salınması, meşələrin qorunması kimi məsələlər araşdırılmışdır. Tədqiqatlar zamanı heyvanların insan həyatındakı rolu araşdırılmış, onlarla ünsiyyətdə, əhilləşdirilməsində, qidalanma üçün istifadə edilməsində psixoloji məqamlar analiz edilmişdir. Alınmış nəticələr analiz edilərək ümumilikdə bioloji amillərin psixoloji amilləri göstərilmişdir.

**Nəticələrin müzakirəsi**

Məlumdur ki, insanlar ətraf mühitlə, təbiətlə hər zaman əlaqədədirlər. Ona görə də təbiət amillərinin onların həyatında mühüm rolu vardır. İnsanın ən çox əlaqədə olduğu bioloji amillər bitkilər və heyvanlardır. Ona görə də bu amillərlə insanların psixoloji əlaqələrinin araşdırılması çox vacibdir. Şəkil 1-də meşə daxilində salınmış dar yol təsvir edilmişdir. Sol tərəfdə verilmiş şəkildən görünür ki, ağaclar xaotik olaraq bitmişdir. Bu ağacların arasında əyri yol salınmışdır. Lakin sağ tərəfdə verilmiş şəkildə ağaclar nisbətən nizamlıdır və ən əsası isə bu ağacların arasında düz yol salınmışdır. Ona görə də şəklə baxdıqda insanlara daha çox xoş təsir bağışlayır.

Şəkil 1-də verilmiş mənzərənin təhlili zamanı müəyyən olunmuşdur ki, bioloji obyektlərin insanların psixoloji durumuna kifayət qədər güclü təsiri vardır. Ona görə də rəssamların əsərlərində təbiət mənzərələri, xüsusilə ağaclar və meşələr geniş yer tuturlar. Çünki bu əsərlər insanların daha çox ruhunu oxşayır. Ona görə də insanlar yalnız təbiətdə hazır bitkilərdən deyil, həm də öz istədikləri kimi əkdikləri bitkilərdən zövq almağı bacarırlar. Məlumdur ki, bağlarda ağacların əkilməsi, çiçəklərin yetişdirilməsi xüsusi bacarıq tələb edir. İnsanlar bunu sevə-sevə yerinə yetirirlər. Çünki bu bitkilərin psixoloji olaraq insanlara əvəzedilməz təsiri vardır. Şəkil 2-də Xarı bülbül bitkisinin təsviri verilmişdir.



**Şəkil 2. Xarı bülbül**.

Şəkil 2-dən göründüyü kimi Xarı bülbül bitkisi sadə quruluşa malik, lakin zövq oxşayan bitkidir. Lakin bu bitkinin psixoloji olaraq insanlara təsiri daha yüksəkdir. Qarabağ torpağının simvoluna çevrilmiş bu bitki, uzun müddət həsrətlə gözlədiyimiz hadisələrin baş verməsinə təkan vermişdir. Göründüyü kimi ilk baxışdan kifayət qədər sadə görünən bioloji obyektlər insan psixologiyasına yüksək təsir göstərir. Ona görə də iş yerlərimizdə də zövqləri oxşayan bitkilərin becərilməsi məqsədəuyğundur. Müəyyən edilmişdir ki, belə amillər insanlara psixoloji olaraq yaxşı təsir göstərir və işçilər daha faydalı çalışa bilirlər.

Bitkilərin insanlara təsirində olduğu kimi heyvanlar və quşlar da insanlara psixoloji olaraq təsir göstərə bilirlər. Ona görə də ilk dövrlərdən başlayaraq insanlar yaşayış məskənlərində bəzi heyvanları əhilləşdirməyə başlayıblar. Onlardan kənd təsərrüfatında, qidalanmaq üçün istifadə etdikləri kimi psixoloji olaraq xoş aura yaratmaq üçün də istifadə ediblər. Belə hadisələrə nümunə olaraq tutuquşuları göstərmək mümkündür. Bir çox insanlar öz evlərində və iş yerlərində tutuquşular saxlayırlar. Bəzi hallarda istirahət yerlərində də tutuquşular saxlanılır. Müəyyən edilmişdir ki, bu quşların yemlənməsi və müşahidə edilməsi insanlara psixoloji rahatlıq verir. Göyərçinlərin sülh rəmzi daşıması hər birimizə psixoloji rahatlıq verir. Bayramların qeyd edilməsi zamanı, qələbələrin qeyd edilməsi zamanı insanlar ağ göyərçinləri uçurdur, onları müşahidə edərək əhval-ruhiyyəni yüksəldirlər. Göründüyü kimi bitkilərdə olduğu kimi quşlarda da insanlara təsir göstərən pozitiv amillər vardır.

Müəyyən edilmişdir ki, heyvanlara olan münasibət, quşlar və bitkilərə olan münasibətdən bir qədər fərqlidir. Bitkilər və quşlar psixoloji olaraq daha çox incə ruhla qarşılansa da heyvanlar güc rəmzi olaraq başa düşülür. Ona görə də "boz qurd", "pələng", "aslan" kimi obrazlar formalaşır. Zooparklarda vəhşi heyvanların saxlanılması, insanlara və xüsusilə məktəblilərə onların nümayiş etdirilməsi, həmin heyvanların psixoloji aspektlərinin aşılanması üçün vacibdir. Ev heyvanlarının saxlanılması bir sıra psixoloji xəstəliklərin müalicəsinə dəstək olur. Müəyyən edilmişdir ki, tənha yaşayan insanlara ev heyvanları psixoloji dəstək olurlar. Akvariumlarda balıqların saxlanılması həm estetik olaraq gösəl mənzərə formalaşdırır, həm də insanlara sakitlik bəxş edir. Ona görə də son zamanlar zooparklarda olduğu kimi böyük akvariumlar – okeanariumlar salınaraq insanların dincələcəyi yerlərə çevirirlər. Belə yerlərdə müxtəlif su heyvanlarının yaşaması üçün şərait yaradıla bilir. Şəkil 3-də Rusiyanın Moskva şəhərində yerləşən okeanariumda balıqları müşahidə edən uşaqlar təsvir edilmişdir. Göründüyü kimi balıqların ölçüləri uşaqlardan bir neçə dəfə böyükdür. Belə balıqları canlı olaraq müşahidə etmək məktəb yaşlı uşaqlarda biologiya elminə olan marağı daha da artırır. Yalnız onlara psixoloji olaraq müsbət aura vermir, eyni zamanda tədris prosesinin yaxşılaşdırılmasına da öz təsirini göstərir.



**Şəkil 3. Okeanariumda balıqların müşahidəsi.**

Göründüyü kimi bioloji amillərin insan psixologiyasına güclü təsiri vardır. Ona görə də biologiya sahəsində tədqiqatların aparıldığı zaman psixoloji amillər nəzərə alınmalıdır. Məlumdur ki, biologiya elmi yalnız bitkilər, quşlar və heyvanlardan ibarət deyildir. Son zamanlar bio-nano texnologiyaların inkişaf etməsi nəticəsində biologiya elminin daha yeni sahələri yaranmağa başlamışdır. COVID 19 virusunun yayıldığı pandemiya dövründə çox ciddi psixoloji problemlərin yarandığının şahidi olduq. Göründüyü kimi gözlə görünməyəcək dərəcədə kiçik olan bioobyekt – virus kifayət qədər böyük fəsadların yaranmasına, insanların ölümünə, dünya iqtisadiyyatının silkələnməsinə səbəb oldu. Ona görə də istər mikroorqanizmlərlə işləyərkən, istər hər hansı makroskopik bioloji obyekti öyrənərkən mütləq həmin tədqiqatların psixoloji aspektləri araşdırılmalıdır.

**Nəticə**

Bu işdə bioloji amillərin (bitkilərin, quşların, heyvanların) insanların psixologiyasına təsiri tədqiq edilmişdir. Müəyyən edilmişdir ki, bitkilərin və heyvanların insanların psixologiyasına kifayət qədər güclü təsir mexanizmləri vardır. Ona görə də insanlar yaşadıqları ərazilərdə xoşladıqları bitkiləri becərirlər, kəndlərdə salınan meyvə bağları, şəhərlərdə salınan parklar insanlara psixoloji olaraq yüksək təsir göstərir. Bu səbəblərə görə bioloji təqiqatlar zamanı alınacaq nəticələrin proqnozlaşdırılması ilə eyni zamanda bu tədqiqatların psixoloji aspektlərinə də nəzər salınmalıdır.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. S.A. Surkov, Psychological aspects of economic behavior of peaple, Universal Journal of Management, 2, P.40-47, 2014.
2. Д.В. Труевцев, О.А. Сагалакова, О.В. Жирнова, Современная патопсихология и психопатология на этапе пересмотра классификаций психических болезней: осмысление логики взаимодействия, проблем и перспектив развития, Неврологический вестник, LIII, С.78-86, 2021.
3. P. Soons, J. Denollet, Medical psychology service in dutch general hospitals: state of the art developments and recommendations for the future, Journal of Clinical Psychology in Medical Settings, 16, P.161-168, 2009.
4. N.N. Əhmədova, Müəssisələrin təşkili və fəaliyyətində insan resurslarının idarə edilməsinə müsbət təsir göstərən sosialpsixoloji texnologiyalardan istifadə, Azərbaycan Dillər Universiteti, Elmi xəbərlər, 1, S.133-139, 2022.
5. R.E. Quliyeva, Təlim prosesində kiçikyaşlı məktəblilərin yaradıcı təxəyyülünün inkişafının psixoloji əsasları, Bakı Slavyan Universiteti, Elmi əsərlər, İctimai-siyasi elmlər seriyası, 2, S.43-47, 2019.
6. B.E. Bəylərova-Ələkbərova, Fənlərin tədrisi metodikasında şagird istəklərinin təlim motivlərinə təsiri, Bakı Dövlət Universiteti, Xəbərlər, 4, S.328-330, 2019.
7. E.B. Bəylərov, İstedadlı uşaqların təlimində motivasiya problemləri, ARTPİ-nin Elmi əsərləri, 4, S.332-334, 2010.

**Якут Ахмед САЛАХОВА,**
**Ханымгиз Рустам РУСТАМОВА**
под АГПУ Азербайджанский Государственный Педагогический Колледж
E-mail:yaqut.salah@mail.ru
Западно-Каспийский университет, Баку, AZ-1001, Азербайджан

## ПСИХОЛОГИЧЕСКИЕ АСПЕКТЫ БИОЛОГИЧЕСКИХ ФАКТОРОВ

**Резюме**

В представленной работе исследовано влияние биологических факторов на психологию людей. В ходе исследований отдельно исследовалось влияние растений и животных на психологию людей. Определено, что каждый из этих факторов оказывает сильное влияние на психологию человека. Поэтому люди выращивают те растения, которые им нравятся, в тех местах, где они живут. Люди, которые отдалились от своих близких, в основном заводят домашних животных. Было рекомендовано использовать влияние живого мира на психологию людей в вопросах совершенствования детской психологии. Определено, что экскурсия школьников в зоопарки и ботанические сады повышает их интерес к биологическим наукам и положительно влияет на их психологию.

**Ключевые слова**: биологические факторы, психология, растения, животные, живые существа.

**Yakut Ahmed SALAHOVA,**
**Khanimgiz Rustam RUSTAMOVA**
Under ASPU Azerbaijan State Pedagogical College
E-mail:yaqut.salah@mail.ru
West Caspian University, Baku, AZ-1001, Azerbaijan

## PSYCHOLOGİCAL ASPECTS OF BİOLOGİCAL FACTORS

**Summary**

The presented work examines the influence of biological factors on human psychology. In the course of research, the influence of plants and animals on human psychology was separately studied. It has been determined that each of these factors has a strong influence on human psychology. Therefore, people grow the plants they like in the places where they live. People who are estranged from their loved ones tend to have pets. It was recommended to use the influence of the living world on human psychology in matters of improving child psychology. It has been determined that schoolchildren's excursions to zoos and botanical gardens increase their interest in biological sciences and have a positive effect on their psychology.

**Key words**: biological factors, psychology, plants, animals, living beings.

**Daxil olub:** 12.11.2023